# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

YAP Sədrinin müavini Tahir Budaqov Vyetnamda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbirdə iştirak edib



3


SƏS

№ 009 (7419)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

3 fevral 2026-cı il.
Qiyməti 1 manat


## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərində işgüzar səfərdədir



2

## Ermənistan KTMT-nin "qapısını" çırpıb gedir - Paşinyanı nə gözləyir?



5

### Elektrikli avtomobillər radiasiya yayır?



8

### Müasir və uğurlu model: gənclər siyasəti



7

### "Bu addımlar Azərbaycan-İran münasibətlərinin gələcək inkişafı üçün diplomatik əsaslar formalaşdırıb"



4

### TƏRSİNƏ çevirdiyimiz dünya...



7

### Trampın əli tətikdədir...



5

# Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərində işgüzar səfərdədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan qarşılayıb.

Azərbaycan Prezidenti İlham Əliyevin dünən Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü olub. Söhbət zamanı Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığı vurğulanaraq, ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə inkişafından məmnunluq ifadə olundu, münasibətlərimizin genişlənməsində hər iki prezidentin Azərbaycana və BƏƏ-yə qarşılıqlı səfərlərinin, görüşlərinin önəmi qeyd edildi.







Görüşdə Əbu-Dabidə Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin Silahlı qüvvələri arasında keçirilən "Sülh Qalxanı - 2026" birgə əməliyyat-taktiki təliminin əhəmiyyətinə toxunuldu, bu təlimlərin iki ölkənin Silahlı qüvvələri arasında operativ hərbi uyğunluğun inkişafına töhfə verəcəyinə əminlik bildirildi və bunun gələcəkdə də davam etdirilməsinin önəmi vurğulandı. Dövlət başçıları əlaqələrimizin perspektivlərinə və gələcək təmaslara dair fikir mübadiləsi apardılar.

Sonra Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG Şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənəd imzalandı. Qeyd edək ki, səfər çərçivəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığı razılaşması barədə niyyət məktubu da imzalanıb. Azərbaycan və BƏƏ prezidentləri bu sənədlərin ölkələrimiz arasında əlaqələrin daha da inkişafına təkan verəcəyinə əminliklərini bildirdilər. Söhbət zamanı Bakı ilə Əbu-Dabi arasında qardaşlaşma münasibətlərinin yaradılması məsələləri də qeyd edildi.

# Dmitri Solonnikov: "Azərbaycanla əməkdaşlıq Ermənistan üçün yeganə çıxış yoludur"

Müasir Dövlət İnkişafı İnstitutunun (Rusiya) direktoru Dmitri Solonnikov Ermənistan hakimiyyətinin ölkə üçün təhlükəsizliyin təminatı kimi sülhü seçmək siyasətini "Moskva-Baku" portalına müsahibəsində şərh edib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.



***- Dmitri Vladimiroviç, Ermənistanın Baş naziri Nikol Paşinyan Ordu günündə hərbçilərlə görüşdə ölkə tarixində müharibənin məlum nəticələrini çatdırıb. O, "əsl Ermənistan"ı, ölkələr arasında iqtisadi əlaqələrin inkişafı və sülh ilə müqayisə edib. Bu seçim haqqında nə deyə bilərsiniz?***

- Ermənistanın Baş naziri Nikol Paşinyan sülh və Ermənistan Respublikasının gələcək inkişafı haqqında danışıb. O, respublikanın gələcək inkişafını təsəvvür edir. Baş nazir "tarixi ideyaları" Azərbaycana qarşı ərazi iddialarından imtina etməyi nəzərdə tutan yeni "əsl Ermənistan" konsepsiyası ilə müqayisə edir. Bu yanaşma, Ermənistan tarixində mövcud Ermənistan hakimiyyətini ümumilikdə əhəmiyyətli dərəcədə fərqləndirir. O, həmçinin onları son seçki yarışında fərqləndirir. Xatırlatmaq istəyirəm ki, Ermənistanda parlament seçkiləri bu yay keçiriləcək və Nikol Paşinyanın öz gündəliyi ilə ölkədə hakimiyyətdə qalıb-qalmayacağını və ya digər qüvvələrin hakimiyyətə gəlib-gəlməyəcəyini müəyyən edəcək. Aydındır ki, Paşinyan Azərbaycan və Türkiyə ilə sülh gündəliyinin həyata keçirilməsini möhkəmləndirməyə davam edərsə, ölkədə tarix yazacaq. Bu gün obyektiv olaraq Ermənistan xalqı seçkilər öncəsi iki yol ayrıcındadır. Bir tərəfdən, revanşist və millətçi baxışları asanlıqla aradan qaldırmaq mümkün deyil, lakin hərbi gündəmin əleyhdarlarının, dinc həyatda dinc həyatın tərəfdarlarının və buna görə də hazırkı baş nazirin mövqeyini dəstəkləyənlərin sayı artır.

Aydındır ki, Nikol Paşinyanın qarşıdan gələn seçkilərdə qalib gəlmək şansı daha yüksəkdir. Bu gün Ermənistan üçün revanşizm yolu çıxılmaz vəziyyətdədir. Görürük ki, Ermənistan müxalifətindəki həm köhnə, həm də yeni fiqurlar revanşizmi müdafiə edir və Qarabağ məsələsini qaldırmağı müdafiə edir. Paşinyan isə əksinə deyir ki, əgər Ermənistan sülh, inkişaf və rifah istəyirsə, Qarabağ məsələsi, Ermənistandakı Qarabağ millətçi hərəkatı bağlanmalıdır. Çünki bu məsələ dövlət üçün birbaşa təhlükədir. Və bu halda o, tamamilə haqlıdır.

Eyni zamanda, həm köhnə, həm də yeni müxalifət qüvvələrinin Ermənistandakı seçkilər ərəfəsində açıqlamalarını artırdığını görürük. Məsələn, keçmiş prezident Robert Köçəryan Paşinyanın ölkəni praktik olaraq uçuruma apardığını, hazırkı baş nazirin demək olar ki Türkiyə və Azərbaycan tərəfdarı olduğunu və Ermənistanla Azərbaycan, Ermənistanla Türkiyə arasında sülhün yalnız Bakı və Ankara üçün faydalı olduğunu, Ermənistan Respublikasına isə heç də faydalı olmadığını iddia edir. Lakin bu, cəfəngiyatdır və əhalini manipulyasiya etmək üçün bir vasitədir.

Xüsusilə Ermənistan təxminən 30 ildir ki, qonşuları tərəfindən iqtisadi blokadadadır. İndi isə Ermənistan-Azərbaycan sülh prosesi ilə yeni imkanlar açılır. Buna görə də Köçəryanın dedikləri siyasi hoqqabazlıqdır, tarixi hadisələrdən istifadə edərək əhaliyə Paşinyanın sözün əsl mənasında erməni xalqı və Ermənistan üçün müqəddəs olan hər şeyi məhv etməyə çalışan bir düşmən olduğunu göstərmək cəhdidir. Müxalifət sözün əsl mənasında əhalini hazırkı baş nazirlə qorxutmağa çalışır və deyir ki, əgər o, hakimiyyətdə qalarsa, respublika demək olar ki, hər şeyi itirəcək.

Bu fonda respublikadakı yeni, eyni zamanda müxalifət olan "Güclü Ermənistan" siyasi qüvvəsinin nümayəndəsi- ölkədə həbs olunan iş adamı Samvel Karapetyanın qardaşı oğlu Narek Karapetyan da açıq şəkildə Ermənistanda Qarabağ məsələsindən heç bir halda imtina edilməməli olduğunu bildirir. Başqa sözlə, istər köhnə, istərsə də yeni olsun, Ermənistan müxalifəti əhaliyə təqdim etmək üçün tamamilə köhnəlmiş gündəmdən istifadə edir. Nədənsə, onlar Paşinyanın 8 illik hakimiyyəti dövründə əhaliyə yeni bir şey təklif edə bilməyiblər. Onlar yalnız hazırkı baş nazirin rəhbərliyi altında hər şeyi itirməklə hədələyirlər.

Ermənistan müxalifəti deyir ki, "Ermənistan keçmişə qayıtmalıdır. Biz müharibə vəziyyətinə qayıtmalıyıq". Amma gəlin etiraf edək ki, Ermənistanın keçmişi müsbət deyil. Ermənistan cəmiyyəti bütün bunlara qayıtmağa hazır deyil. Heç kim Paşinyanı tezliklə məğlub edə bilməyəcək. Çünki müxalifətin təklif etdiyi gündəmlə Ermənistan inkişaf etməyəcək; o, keçmişə qayıdacaq.

***- Görürük ki, Paşinyan Azərbaycanla sülh gündəliyini fəal şəkildə həyata keçirir. Həm İrəvan, həm də Bakı artıq iqtisadi əməkdaşlıqdan faydalanır. Amma medalın başqa bir tərəfi də var. Rusiyada bir çox insan hazırkı baş nazirin qərbyönümlü olduğunu, KTMT-ni tənqid etdiyini və bu siyasətin, o cümlədən onun Avropa yönümlülüyünün və Qərbi Cənubi Qafqaza çəkmək üçün edilən bütün uğurlu cəhdlərin hara aparacağını düşünür...***

- Yeri gəlmişkən, müxalifət də KTMT-yə qarşı şikayət kartından istifadə edir. Və məlum olur ki, bu baxımdan mövcud hökumət və müxalifət də fərqli deyil. Bəli, Paşinyan Qərbin tələbəsidir. Və o, Qərbin ona dediyi hər şeyi edəcək. Qərbin dəstəyi ilə, çox güman ki, qarşıdan gələn seçkilərdə qalib gələcək. Bəli, Paşinyan həqiqətən də Qərbi regiona cəlb etməyə, Cənubi Qafqazda Qərb mövqelərini gücləndirməyə davam edəcək- bu, onun əsas məqsədidir və o, məhz bu məqsədlə hakimiyyətə təyin olunub. Amma eyni zamanda, bu gün o, Rusiya ilə qarşılıqlı əlaqədə olmağa və Ermənistan üçün faydalı olanı götürməyə davam edir.

Bir gün əvvəl o, Rusiya ilə münasibətləri inkişaf etdirmək istədiyini bildirərək, Rusiyadan Azərbaycan və Türkiyə ilə sərhədlərdə dəmir yollarını bərpa etməsini xahiş etmişdi. O, bunu Ermənistana fayda verdiyi müddətcə edəcək. Rusiya da öz növbəsində hazırda Ermənistan-Azərbaycan sülh gündəliyi çərçivəsində layihələrdə iştirak edir. Bu, əslində, Rusiyanın regiondakı mövcudluğunun, o cümlədən Amerika və Avropanın orada artan iştirakı fonunda mühüm siyasi komponentidir.

***Tərcümə - Elçin Bayramlı***

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev sosial media hesablarında Gənclər Günü ilə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: "Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!".

***

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Gənclər Günü ilə bağlı paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əminəm ki, Azərbaycan gəncləri öz uğurları, qələbə və nailiyyətləri ilə xalqımızı daim sevindirəcək və ölkəmizin inkişafına layiqli töhfələr verəcəklər".

***

Yanvarın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 30-da Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maria K.Papakonstantinunu qəbul edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 30-da Norveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andreas Qaarderi qəbul edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 30-da İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helmini qəbul edib.

# YAP Sədrinin müavini Tahir Budaqov Vyetnamda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbirdə iştirak edib

***Azərbaycan Respublikasının Vyetnamdakı səfirliyinin təşkilatçılığı ilə Hanoyda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbir keçirilib.***

Tədbirdə Vyetnamın dövlət və hökumət rəsmiləri, diplomatik missiya təmsilçiləri, Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının üzvləri, Azərbaycanda təhsil almış vyetnamlı məzunlar, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycanın Vyetnamdakı fövqəladə və səlahiyyətli səfiri Şövqi Mehdizadə iki ölkə arasında tarixi köklərə əsaslanan səmimi dostluq münasibətlərinin mövcud olduğunu diqqətə çatdırıb. O, 1959-cu ildə Vyetnam xalqının öndəri Ho Şi Minin Azərbaycana, 1983-cü ildə isə Ümummilli Lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Vyetnama səfərlərinin xalqlarımız arasında münasibətlərin və ölkələrarası əməkdaşlıq əlaqələrinin qurulmasında müstəsna rol oynadığını deyib. Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın ötən ilin may ayında Azərbaycana səfərini xatırladan səfir iki ölkə arasında münasibətlərin uğurla inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini deyib.









Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Kommunist Partiyasının (VKP) 14-cü qurultayının uğurla baş tutması münasibətilə təbriklərini çatdırıb.

Tahir Budaqov qeyd edib ki, müdrik dövlət xadimi Heydər Əliyev istər SSRİ dönəmində, istərsə də Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkəmizə rəhbərlik etdiyi zaman Vyetnam ilə münasibətlərin inkişafına böyük önəm verib. Onun sözlərinə görə, Heydər Əliyev siyasətini müasir çağırışlara uyğun zənginləşdirərək uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Vyetnamla əməkdaşlığın dərinləşdirilməsinə xüsusi diqqət yetirir: "İki ölkənin fəal siyasi dialoqu tərəflər arasında çoxşaxəli işbirliyinin genişlənməsini şərtləndirir. Bu gün etibarlı strateji tərəfdaşlar olan Azərbaycan ilə Vyetnam qlobal müstəvidə bir-birinin maraqlarının müdafiəsinə böyük əhəmiyyət verirlər".

YAP Sədrinin müavini strateji tərəfdaşlıq münasibətlərinin irəliyə aparılması üçün ayrı-ayrı qurumların üzərinə mühüm vəzifələrin düşdüyünü, bu kontekstdə sıx əməkdaşlığın vacibliyini vurğulayıb.



Tahir Budaqov daimi təmasların istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafına mühüm töhfələr verdiyini söyləyib. Qarşılıqlı səfərlərin önəminə diqqəti cəlb edən YAP Sədrinin müavini Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasındakı əlaqələrin genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini deyib: "2023-cü ildə YAP ilə VKP arasında imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin icrası istər partiyalarımız, istərsə də ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir".



Tahir Budaqov milli maraqlara əsaslanan birgə fəaliyyət nəticəsində yeni nailiyyətlərin əldə olunacağına əminliyini ifadə edib.

Vyetnam Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hong inkişaf yolunda əmin addımlarla irəliləyən hər iki ölkənin dostluq və tərəfdaşlıq münasibətlərini birgə səylərlə daha da gücləndirmək əzmində olduqlarını vurğulayıb. O, Azərbaycan ilə Vyetnamın müxtəlif sahələrdə işbirliyini genişləndirməsinin vacibliyinə toxunaraq statistika qurumları arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işlərdən bəhs edib. Nguyen Thi Hong 2024-cü ilin dekabr ayında Bakıda imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələrək sistemli fəaliyyətin həyata keçirildiyini söyləyib. O, bir neçə gün əvvəl statistika sahəsində 2026-2028-ci illər üçün İş Planının imzalanmasının qurumlararası əlaqələri daha da dərinləşdirəcəyinə əminliyini bildirib.

Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının sədri Dang The Vin Azərbaycan-Vyetnam münasibətlərinin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu söyləyib. O, vaxtilə Azərbaycanda təhsil almış vyetnamlı gənclərin bir çoxunun Vyetnamın ictimai-siyasi həyatında fəal rol oynadıqlarını, iki xalq arasında əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfələr verdiklərini bildirib.



# Dövlət Statistika Komitəsinin nümayəndə heyətinin Vyetnama səfəri başa çatıb

***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində bu ölkənin iqtisadi-maliyyə mərkəzi və əhali sayına görə ən böyük şəhəri olan Ho Şi Min şəhərində bir sıra görüşlər keçirib.***

Ho Şi Min Xalq Komitəsinin sədri Vo Van Minh və Ho Şi Min Şəhər Statistika İdarəsinin direktoru Nguyen Khac Hoang ilə görüşlərdə bir-birinin maraqlarına hörmətlə yanaşan Azərbaycan ilə Vyetnam arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb. Qarşılıqlı səfərlərin təcrübə mübadiləsi və müxtəlif istiqamətlərdə, o cümlədən statistika sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından böyük önəm daşıdığı bildirilib.

Səfər zamanı nümayəndə heyətinin ölkənin neft sənayesi mərkəzi olan Vunqtau şəhərində "Vietsovpetro" şirkətinin rəhbərliyi və Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının Vunqtau bölməsinin üzvləri ilə də görüşü olub. Görüşdə "Vietsovpetro" şirkətinin yaradılmasından bir müddət sonra - 1983-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başçılıq etdiyi SSRİ nümayəndə heyətinin Vunqtauya səfəri və daha sonra Vyetnama göstərilən dəstək sayəsində dənizdə ilk neftin hasil edildiyi xüsusi vurğulanıb. Azərbaycanlı mütəxəssislərin bu ölkənin neft-qaz sənayesinin qurulmasında xidmətlərinin əvəzsiz olduğu, Vyetnamın sözügedən sahədə kadr hazırlığı istiqamətində Azərbaycanın zəngin təcrübəsinin öyrənilməsinə və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə böyük maraq göstərdiyi qeyd edilib. Vunqtau ilə Bakının qardaşlaşmış şəhərlər olduğu bildirilərək iki ölkənin regionları arasında da işbirliyinin perspektivləri müzakirə olunub. Bu sahədə görüləcək işlərin Azərbaycan-Vyetnam münasibətlərinə dinamizm gətirəcəyinə inam ifadə edilib.

Nümayəndə heyəti Ho Şi Min şəhərindəki Müstəqillik sarayını, Vunqtauda isə "Vietsovpetro" şirkətinin muzeyini və Bakı küçəsini ziyarət edib. Səfər yanvarın 30-da başa çatıb.





















## "Bu addımlar Azərbaycan-İran münasibətlərinin gələcək inkişafı üçün diplomatik əsaslar formalaşdırıb"



"Cənab Prezident İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla telefon danışığı iki ölkə arasında münasibətlərin möhkəmləndirilməsi və qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib. Onun sözlərinə görə, bu cür təmaslar Azərbaycan-İran əlaqələrinin strateji xarakter daşıdığını bir daha nümayiş etdirir və tərəflərin regional sabitlik, təhlükəsizlik və əməkdaşlıq məsələlərində ortaq maraqlara malik olduğunu göstərir:

"Hazırda Azərbaycan ilə İran arasında siyasi, iqtisadi, nəqliyyat, enerji, humanitar və mədəni sahələrdə əlaqələr ardıcıl şəkildə inkişaf edir. Bu xüsusda İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfərlərinin münasibətlərin inkişafında xüsusi rol oynadığını qeyd etmək lazımdır. Onun Azərbaycanda keçirdiyi yüksək səviyyəli görüşlər, aparılan konstruktiv, açıq və nəticəyönümlü danışıqlar ikitərəfli əməkdaşlığın yeni mərhələyə keçməsinə zəmin yaratmışdır. Bundan əlavə, İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilən sammitində iştirak və bu platformada yeni geosiyasi reallıqların qəbul edilməsi regionda formalaşan yeni əməkdaşlıq mühitinin təsdiqi kimi qiymətləndirilə bilər. Bu addımlar həm də Azərbaycan-İran münasibətlərinin gələcək inkişafı üçün mühüm siyasi və diplomatik əsaslar formalaşdırmışdır.

Azərbaycan ilə İran arasında tarixən mehriban qonşuluq, dostluq və qardaşlıq münasibətləri mövcud olmuşdur. Ortak tarixi, dini və mədəni dəyərlər bu əlaqələrin dərin köklərə söykəndiyini göstərir. Məhz bu möhkəm təməl üzərində qurulan münasibətlər bu gün də qarşılıqlı hörmət, suverenliyə və ərazi bütövlüyünə hörmət prinsipləri əsasında inkişaf etdirilir. Ümidvaram ki, mövcud və yeni geosiyasi reallıqlar şəraitində də Azərbaycan ilə İran arasında əlaqələr daha da genişlənəcək, qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq dərinləşəcək və bu münasibətlər regionda sülhün, sabitliyin və davamlı inkişafın təmin olunmasına mühüm töhfə verəcək".

***Arzu Qurbanlı***

# Ermənistan KTMT-nin “qapısını” çırpıb gedir - Paşinyanı nə gözləyir?

**_Ötən ayın ortalarında Ermənistanın baş naziri Nikol Paşinyan bir daha ölkəsinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxdığını elan etdi. Ermənistanın KTMT-də iştirakdan imtina etməsinin səbəblərini izah edən Paşinyan, dondurma və geri çəkilmənin əsas səbəbinin Qərbin beynəlxalq silah bazarına qoyduğu məhdudiyyətlər olduğunu dilə gətirdi. O, bunu 14 yanvarda ABŞ və Aİ ölkələrinin səfirlərinin qatıldığı ”Ermənistan və Dünya: Risklər və Fürsətlərin Kəsişməsində” beynəlxalq forumunda iştirak edərkən keçirilən müzakirə zamanı bildirdi._**



Bundan əlavə, o daha bir cəsarətli açıqlama verərək, Rusiyanı Ermənistanın suverenliyini müdafiə etmək istəməməkdə günahlandırıb və onun KTMT-dəki üzvlüyünü xarici silah alışına məhdudiyyət adlandırıb: ”Bu hadisələr bizi paradiqma dəyişikliyinin zəruri olduğunu anlamağa vadar etdi. Buna görə də, KTMT-dəki iştirakımızı dondurmaq barədə qanuni qərar qəbul etdik”,- deyə baş nazir bildirib. Bundan əlavə, qeyd etmək lazımdır ki, 2025-ci ilin noyabr ayında Ermənistan parlamentinin spikeri Alen Simonyan artıq Ermənistanın KTMT-dən faktiki olaraq çıxdığını bildirmişdi.

Bir çox politoloq bu cür açıqlamaları iki ölkə münasibətlərindəki real problemlərlə deyil, Paşinyanın nəyin bahasına olursa olsun Aİ-yə girmək istəyi ilə əlaqələndirir.

Qeyd edək ki, 10 dekabrda Ermənistan Almaniya ilə strateji tərəfdaşlıq müqaviləsi imzalayıb. Məhz bu forumda Paşinyan və Merz Rusiya təhlükəsi ilə bağlı ortaq məxrəc tapıblar. Paşinyan ilk dəfə Berlində iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatdığını bəyan edib.

Onun sözlərinə görə, bu münasibətlər ”demokratik dəyərlərə” əsaslanır və Yerevan Berlinin ”Ermənistanda demokratik islahatlar və davamlı inkişaf”a dəstəyini yüksək qiymətləndirir və ”Aİ-yə aparan çətin və uzun yolda davamlı siyasi dəstək” gözləyir. Beləliklə, Paşinyan bir çox politoloqun daha əvvəl dediklərini təsdiqlədi: gec-tez Ermənistan Avrasiya İqtisadi İttifaqından çıxacaq, lakin öz şərtləri ilə və özü üçün əlverişli bir vaxtda çıxmaq istəyir. 12 noyabrda keçirilən brifinqdə Ermənistanın baş naziri xarici sponsorlar tərəfindən maliyyələşdirilən yeni bir Ermənistan kəşfiyyat agentliyinin yaradılması ilə bağlı şərh verib. Yeni agentliyin əsasən kimləri hədəf alacağını təxmin etmək çətin deyil. Bir jurnalist bu kəşfiyyat orqanının kimləri hədəf alacağını birbaşa soruşduqda Paşinyan Ermənistan cəmiyyətinə və Rusiya jurnalistlərinə tanış bir şəkildə cavab verdi. Yay seçkilərinin yaxınlaşdığını nəzərə alsaq, o, qəti cavab vermədən və bu kəşfiyyat orqanının Rusiya üçün heç bir təhlükə yaratmadığı barədə ümumi ifadələrə əl ataraq, formalarına sadiq qaldı.

## Beləliklə, son bir il ərzində Paşinyan:

Rusiya və bir sıra digər MDB ölkələri ilə iqtisadi əlaqələri kəsməyə başladı; Kollektiv təhlükəsizlik müqaviləsindən faktiki olaraq çıxdı; Ermənistanda Rusiyapərəst qüvvələrə təzyiqi artırdı.

Öz ərazisində xarici nəzarətdə olan kəşfiyyat orqanı yaratdı. Lakin bütün bu addımlara baxmayaraq, Rusiya-Ermənistan münasibətləri və onların perspektivləri barədə tez-tez olduqca sərt və açıq danışan Paşinyan hazırda birbaşa media qarşıdurmasına ehtiyac duymur: Rusiya və Ermənistan mediasında dərc olunan məlumata görə, baş nazirə qarşı impiçment proseduru hazırda Ermənistan parlamentində davam edir və demək olar ki, hazırdır.

Mediada yayılan məlumatlara görə, Ermənistan parlamentinin 34 üzvü prosesi başlatmaq istəklərini bildirib. Bu barədə ilk olaraq müxalifətdəki ”Mənim Şərəfim” fraksiyasının rəhbəri Hayk Mamicanyan məlumat verib: ”Bu gün müxalifət fraksiyası baş nazirə qarşı etimadsızlıq səsverməsi üçün tələb olunan formanı bütün 28 üzvün imzası ilə geri qaytarıb. 7 iyundan bu günə qədər 34 üzv baş nazirə qarşı etimadsızlıq səsverməsinə qoşulub”, - deyə erməni parlamentari Facebook-da yazıb.

Yalnız bir sual qalır: cəmiyyətin nə qədəri bu ssenarini dəstəkləyir? Cavabı tezliklə görəcəyik: Ermənistanda iyun ayında yeni parlament seçkiləri planlaşdırılır.

İmpiçmentin çox səs qazanması ehtimalı azdır, ona görə də Paşinyan öz partiyasını seçkilərə şəxsən aparacaq. Lakin seçkilərdə Ermənistan xalqı seçim etməli olacaq: Paşinyanla birlikdə, amma Kilsəsiz, yoxsa Kilsə ilə birlikdə, amma Paşinyansız.

***Elçin Bayramlı***

# Pulunu almayana qədər sənə baxmayan həkimlər: səhiyyənin qaranlıq üzü

Bütün dünyada sağlamlıq xidmətlərinə bərabər, ədalətli çıxış insan hüququ kimi qəbul edilir. Dünya Sağlamlıq Təşkilatının Universal Sağlamlıq Əhatəsi konsepsiyasına görə, insanlar lazım olan tibbi xidmətləri maliyyə çətinliyi olmadan ala bilməlidirlər. Yəni xəstə, həkimə pul verə bilmədiyi üçün müalicədən kənarda qalmamalıdır. Lakin reallıq çox vaxt fərqlidir: dünyanın bir çox yerlərində xəstələr təxirəsalınmaz və digər tibbi xidmətlər üçün rüşvət, gizli ödənişlər və ya yüksək xəstəxana hesabları ödəmək məcburiyyətində qalırlar, bu da xəstələri müalicədən imtina etməyə və ya xəstəlikləri ağırlaşmasına səbəb olur. SİA mövzu ilə bağlı araşdırma edib.

## Azərbaycan: vəziyyət və problemlər

*İctimai rəy və təcrübələr*

Azərbaycanda səhiyyə sistemi ilə bağlı ciddi ictimai narazılıq var. Koronavirusdan əvvəl də və sonra da ən çox korrupsiya halları səhiyyə sektorunda müşahidə edilir. Rüşvət, əlavə ödənişlər və qeyri-rəsmi ”pul ödəmə” təcrübələri hələ də bəzi xəstəxanalarda gündəlik təbiq kimi çəkilir - xəstələr rüşvət verməsələr müalicədən kənarda qalmaq və ya xidmət keyfiyyətinin aşağı olması ilə üzləşə bilirlər.

Ombudsmanın 2024-cü il hesabatına görə, müəyyən hallarda tibbi yardım göstərilməməsi ilə bağlı şikayətlər daxil olub ki, bu da xəstələrin hüquqlarının pozulması kimi qiymətləndirilir.

## Maliyyə və struktur problemlər

Bir sıra ekspertlər hesab edir ki, həkimlərin aşağı maaşları, qeyri-kafi maliyyələşmə və səhiyyə infrastrukturu bu sistemdə neqativ davranışlara - xəstələrdən qeyri-leqal ödəniş tələb etməyə - təsir göstərir. Rəsmi olaraq səhiyyə xidmətləri qanunla pulsuz olmalı olsa da, praktikada xəstəxanaya daxil olmaqdan dərmanlara qədər gizli ödənişlər hələ də bəzi hallarda mövcuddur.

## Xəstələr üçün nəticələr

Nəticədə, imkanı olmayan xəstələr xidmətlərdən imtina edir və ya gecikdirir, özəl klinikalara keçə bilmir və dərmanları almaqda çətinlik çəkir.

## Dünya ilə müqayisə - bənzərliklər və fərqlər

*Misal: Daha ədalətli sistemlər*

Yaponiya və bir sıra Avropa ölkələri kimi sistemlərdə hər kəs universal sığorta sisteminə malikdir və həkimlər xəstəxana müalicəsini rədd edə bilməz - xəstə sığorta çərçivəsində ödənilən sistemdə xidmət alır. Ruminiya kimi ölkələrdə isə vətəndaşın sağlamlıq kartı varsa pulsuz müalicə hüququ vardır və təcili yardım da bu qaydada göstərilir. Bu model dünyanın bir çox ölkəsində tətbiq olunur və xəstə ”pul ödəməyibsə xidmət yox” kimi yanaşmanın qarşısını almağa kömək edir.

## Geri qalan reallıqlar

Əksər aşağı və orta gəlirli ölkələrdə, xüsusən Afrikanın bəzi ölkələrində, ailələr xəstəxana xidmətlərinə çıxışı tamamilə ödəmə qabiliyyətinə görə itirir. Bəzi



xəstəxanalarda xəstə və ya qohumlar pul verə bilməsələr təxirəsalınmaz yardım belə gecikdirilir və ya rədd olunur - bu, prinsip etibarilə ”pul olmayana kömək yoxdur” vəziyyətinə bənzəyir.

## Niyə bu problem yaranır?

Korrupsiya və qeyri-rəsmi ödəniş mədəniyyəti: Xüsusən aşağı və orta gəlirli ölkələrdə və bəzən inkişaf etmiş ölkələrdə də xəstələrdən gizli ödənişlər tələb edilməsi problemi hələ də var. Sistemli maliyyə boşluqları: Səhiyyə az maliyyələşdirildikdə həkimlər əlavə gəlir axtarır və bəzən xəstə hesabına bu ödənilir. Universal Sağlamlıq Əhatəsinin olmaması: Daha yaxşı idarə olunan və maliyyələşdirilən sistemlərdə xəstədən xidməti pul müqabilində almaq tələb olunmur. Dünyada hələ çox ölkədə xəstələrin imkanlarından asılı olmayan tibbi xidmətə çıxışı təmin etmək ideal səviyyədə deyil. Azərbaycan daxil olmaqla bir çox yerlərdə xəstələr hələ də gizli ödənişlər və korrupsiya nəticəsində müalicəyə çıxışı məhdudlaşan qruplara mənsubdur. Bu vəziyyət birbaşa insan hüquqlarının pozulması ilə nəticələnə bilər və geniş struktur islahatları tələb edir.

***Ayşən Vəli***

# Trampın əli tətikdədir...

## Mətləb Salahov: "Əgər ABŞ rəhbərliyi İranla müharibənin nəticələrini dəqiq hesablamayıbsa, o zaman bölgə üçün dağıdıcı nəticələr qaçılmazdır"



“Artıq verilən bəyanatlardan və siyasi-hərbi hərəkətlilikdən görünür ki, ABŞ-ın İrana hərbi müdaxiləsi an məsələsidir. Əlbəttə, real siyasi mənzərə odur ki, rəsmi Vaşinqton hazırda özünü dünya siyasəti üçün əsas ağa rolunda görür və Yaxın Şərqdə özünün hegemonluğunu gücləndirmək üçün ”İran planını” sürətlə reallaşdırmaqda israrlıdır. Bu isə o deməkdir ki, ABŞ Administrasiyası və İsrail razılaşdırdıqları plana əsasən bölgədə yeni siyasi xəritəni gerçəyə çevirmək üçün "yola çıxıblar". Bu xəritə isə, İrandakı hazırkı siyasi sistemin çöküşündən sonra aktiv fazaya keçəcək”.

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov deyib. O qeyd edib ki, indi əsas məsələ İrana hərbi müdaxilə nəticəsində baş verəcək müharibənin plansız və dağıdıcı nəticələrə gətirib çıxarmamasıdır. ”Əksinə, bu müharibə plansız baş verərsə və bölgədə xaos yaranarsa o zaman qaçqın ordusundan başlamış acınacaqlı sosial-iqtisadi vəziyyətə qədər dəhşətli fəlakətlər yaşanacaq.

Suriya və digərlərindən fərqli olaraq İran Xəzər sahillərindədir və yaranacaq böhran daha dağıdıcı nəticələr yaradacaq. ABŞ Administrasiyası öz maraqlarını təmin etmək üçün sadaladığımız həmin vacib məqamları nəzərə alıb yoxsa yox, onu da zaman göstərəcək. Trampın əli isə hazırda tətikdədir, amma təkcə İran üçün deyil, həm də bütün bölgə üçün...”

***Afət Tahirqızı***

# Vətənpərvər gənclik qalib Azərbaycanın etibarlı gələcəyidir





***Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatı tərəfindən 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə "Zəfər konsepsiyası və Azərbaycançılıq ideologiyası kontekstində müasir gəncliyin prioritet vəzifələri" mövzusunda tədbir və "Qış məktəbi"nin bağlanış mərasimi keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***







Sonra Azərbaycanda gənclər siyasəti barədə videoçarx nümayiş etdirilib.

Tədbirdə Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov, Milli Məclisin deputatı Könül Nurullayeva, Milli Məclisin deputatı, YAP Təftiş Komissiyasının üzvü Naqif Həmzəyev, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli, partiyanın Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov və başqaları çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, 2 fevral - Azərbaycan Gəncləri Günü Ulu Öndər Heydər Əliyevin gənclərə hədiyyəsi, yüksək diqqət və qayğısının bariz nümunəsidir. Qeyd olunub ki, Ümummilli Lider tərəfindən 1 fevral 1997-ci il tarixindən imzalanmış Sərəncama əsasən fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda Gənclər Günü kimi təntənəli şəkildə qeyd edilməyə başlanıb ki, bu da Azərbaycan gəncliyinə verilən yüksək dəyərin göstəricisidir. Natiqlər Ulu Öndər Heydər Əliyevin mənəvi mirası olan azərbaycançılıq ideologiyası əsasında vətənpərvərlik ruhunda yetişən və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda böyük rəşadət göstərmiş gənclərin qarşısında duran başlıca vəzifələrdən bəhs ediblər. Qeyd olunub ki, vətənpərvər gənclik qalib Azərbaycanın etibarlı gələcəyidir.

Çıxışlardan sonra YAP Nizami rayon təşkilatının 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə təşkil etdiyi "Qış məktəbi"nin bağlanış mərasimi olub. Yanvar ayının 26-dan 30-dək keçirilmiş "Qış məktəbi" haqqında videoçarxın nümayişindən sonra gənclər adından rayon təşkilatının könüllüsü Aytac Şahverənli, "Qış məktəbi"nin könüllü iştirakçısı, qardaş Türkiyə Respublikasının hakim Ədalət və İnkişaf Partiyasının Gənclik qollarının üzvü Can Yücel təəssüratlarını bölüşüblər.

Daha sonra Nizami rayonunun ictimai və mədəni həyatında fəallığına görə bir qrup gənc Nizami Rayon İcra Hakimiyyətinin fəxri fərmanları, YAP Nizami rayon təşkilatının ictimai-siyasi həyatında fəallıqlarına görə bir qrup gənc fəxri fərmanlar, təşəkkürnamələr, eləcə də rayon təşkilatının könüllülük layihəsinin məzunları və "Qış məktəbi"ni uğurla başa vuran iştirakçılar sertifikatlar ilə təltif ediliblər. Tədbirə Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə yekun vurulub.

# Hərbi tribunallar və onların nəticələri

Yazılı mənbələrə istinadən demək olar ki, dünya yaranandan insanlar bir -birinə düşmən kəsilib. Öldürmək, yaralamaq, qarət və talançılıq etmək insanların əsas məqsədi, fəaliyyət istiqamətləri olub. Bu səbəbdən də yalnız 3 min illik dünya tarixində 14 mindən çox müharibə baş verib. Həmin müharibələrdə ümumilikdə 1 milyard 250 minə yaxın insan öldürülüb və ya yaralanıb. Baş verən müharibələrdə nəinki şəhər və qəsəbələr, hətta onlarla dövlət yer üzündən silinib. Müharibələrin başlanması üçün müxtəlif səbəblərin olması ilə yanaşı qısa və uzun müddətli savaşlar da olub. Son iki yüz il ərazində qeydə alınan ən qısa müharibənin İngiltərə-Zanzibar müharibəsi hesab olunur. 1896-cı ildə baş verən müharibə cəmi 45 dəqiqə sürüb və İngiltərənin qələbəsi ilə yekunlaşıb. İngiltərə ilə Siciliya arasında baş berən qarşıdurma 335 il davam edib və nəticə İngiltərənin xeyrinə olub. Növbəti uzunmüddətli müharibə 1338-1453 İngiltərə ilə Fransa arasında baş verib. İddialara görə müharibələrin yaranmasının bir səbəbi torpaq işğal etmək, daha çox var-dövlət əldə etmək olsa da, digər səbəbi insanların artmaqda olan sayını azaltmaqdır. Bəzi dünyanı idarə edən şəxslər müxtəlif formalarla insanların məhv edilməsinə çalışırlar. Elm, texnogiya inkişaf etdikcə insanların sayının azaldılması üsullarda dəyişir. Yeni fərqli metodlardan istifadə edilir. Dövriyyə COVID-19, GMO məhsullar və digər insanların məhvedilməsinə hesablanan xəstəliklər və qida məhsulları buraxırlar. Lakin insanlığın sıradan çıxarılması məsələsində ən əlverişli vasitə yenə də müharibələrdir. Çünki müharibələrlə insanları öldürməklə yanaşı silah-sursat satılır, torpaqlar işğal edilir və həmin ərazilərin sərvətləri ələ keçirilir. Tarixdə ən qanlı müharibələr isə birinci və ikinci dünya müharibələridir. Ümumilikdə hər iki müharibənin sonunda 90 milyon insanın öldürüldüyü, 140 milyon insanın isə sağlamlığından məhrum olduğu məlum olub. 1939-1945-ci illəri əhatə edən II Dünya Müharibəsinə 60-dan çox dövlət, ümumilikdə 1 milyard 700 milyon insan qatılıb. O dövrdə dünya əhalisinin sayı cəmi 5 milyard olub. Deməli, müharibədə bəşər əhlinin dörddə biri iştirak edib. Müharibə 50-yə yaxın ölkənin ərazisində gedib. Müharibədə 70 milyona yaxın insan həyatını itirib, 110 milyon insan yaralanıb və yaxud bu və ya digər dərəcədə əlillik qazanıb. Qanlı savaş faşist koalisiyası üzərində qələbəsi ilə nəticələndi. 1945-ci il mayın 8-dən 9-a keçən gecə alman generalı Vilhelm Keytel qeydsiz-şərtsiz təslim aktını imzaladı. 1945-cı ilin 14 noyabrında isə alman hərbi müqəssirlərin mühakimə olunması ilə əlaqədar Nürnberq prosesi başlandı.



Tokio prosesində ittiham olunan 29 nəfərdən 7-sinə asılmaqla ölüm hökmü verilib. Bu siyahıya Yaponiyanın keçmiş iki baş nazirinin, Koki Xirota və Xideki Todzionun da adı düşüb. Bütün edamlar Suqamo həbsxanasının həyətində icra edilib. Məhkəmənin hökmü ilə 15 nəfərə ömürlük, 3 nəfərə isə 10-15 il azadlıqdan məhrumetmə cəzası verilib. İttiham olunanlardan iki nəfərə isə prosesin sonuna qədər yaşamaq qismət olmayıb. Onlardan biri psixoloji durumunda yaranmış problemlərdən ölüb, digəri isə intihar edib.Maraqlı məqamlardan biri odur ki, Tokio prosesində ömürlük və ayrı-ayrı müddətlərə azadlıqdan məhrum edilmişlərin üç nəferindən başqa (həmin üç nəfər həbsxanada ölüb) digərləri artıq 1955-ci ildə azadlıqda olublar. Hətta onlardan ikisi Yaponiyada yüksək vəzifələr də tutublar. Mamoru Siqemitsu Yaponiyanın xarici işlər naziri, Okonori Kaya isə ədliyyə naziri olub.

## Xocalı Soyqırımını törədənlər mütləq cəzalarını alacaqlar

BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli qətnaməsində qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu pozmaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dəyərlərdən məhrum edir.

1992-ci il fevralın 25-dən 26-a keçən gecə Xocalı şəhərində ermənilər tərəfindən dünyanı sarsıdan soyqırımı aktı törədilib. Ermənistan silahlı qüvvələrinin Xocalıya hücumu zamanı 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq bir valideynini itirmişdir. Faciə zamanı 1275 nəfər dinc sakin girov götürülmüş, 150 nəfər itkin düşmüş, 487 sakin ağır yaralanmış, 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi naməlumdur. 1993-cü il aprel ayının əvvəllərində Ermənistan Silahlı Qüvvələri hərbi təcavüzlə Kəlbəcər rayonunun Başlıbel kəndində mülki əhaliyə qarşı xüsusi amansızlıq və qəddarlıq nümayiş etdiriblər. Azərbaycanın Baş Prokurorluğun İstintaq idarəsinin müstəntiqləri tərəfindən məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən 24 aprel 2021-ci il tarixdə Kəlbəcər rayonunun Başlıbel kəndində müvafiq istintaq hərəkətləri keçirilərək 50 sm dərinlikdə torpağa basdırılmış kəskin çürüməyə məruz qalaraq skletləşmiş 12 nəferin meyitlərinin qalıqları aşkar edilib. Bu xalqımıza qarşı törədilən növbəti soyqırımı aktdır. Bütün bu və digər vəhşiliklər erməni vandal toplumunun törətdiyi soyqırımı aktıdır. Haqlı olaraq 30 illik erməni işğalı zamanı azərbaycanlılara qarşı vəhşiliklər törətmiş erməni terrorçu dəstələrinin bəzi şəxsləri Azərbaycanın müzəffər ordusunun keçirdiyi aniterror əməliyyatları zamanı həbs ediliblər. Artıq onlara qarşı məhkəmə prosesi keçirilir. Əminliklə demək olar ki, Məhkəmə erməni hərbi - terrorçu dəstəsinin üzvləri olan Arutunyanın, Qukasyanın, Saakyanın və digərlərinin layiqli formada cəzalandırılması haqqında qərar qəbul edəcək. Digər cinayətkarlar, o cümlədən Koçaryan, Sarkisyan, Ohanyan da gec-tez həbs olunaraq məhkəmə qarşısına çıxarılacaqlar. Nəzərə almaq lazımdır ki, BMT Baş Məclisinin 3 dekabr 1973-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərdə, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair belnəlxalq əməkdaşlıq prinsipləri"nə müvafiq olaraq, hərbi cinayətlərdə və bəşəriyyətə qarşı cinayətlərdə təqsirkar olan şəxslərin məhkəmə təqibinin və cəzalandırılmasının təmin edilməsinə yönəldilmiş beynəlxalq tədbirlərin görülməsinə xüsusi zərurət var.

***İLHAM ƏLİYEV***

# Müasir və uğurlu model: gənclər siyasəti




Dövlət gənclər siyasəti ölkə başçısı Cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Bunun nəticəsidir ki, bugünki Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir, yüksək intellekt yetişib. Prezident İlham Əliyev gənclərin dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi, onların potensialından düzgün istifadə məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin etmiş oldu. "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib. Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. 2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin Sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edildi. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri etmiş oldu. Bu gün Azərbaycanda gənclərin uğurlu gələcəyi üçün hər bir şərait vardır. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu. Prezident Mükafatı elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə 10000 (on min) manat məbləğində verilir.

## QAYĞI VƏ ETİMADIN BARİZ NÜMUNƏSİ

Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücü məhz gənclərdir. Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Sərəncam imzaladı. Ölkəmizdə təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi onlar ayrı-ayrı təşkilatlarda müxtəlif vəzifələrdə işləyirlər. Könüllülər hərəkatının cəmiyyətin inkişafında xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir. Könüllülər hərəkatı "ASAN xidmət"dən başladı və bu gün "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir.

Gənclərə ayrılan daha bir diqqətdir ki, ölkəmizin bir neçə şəhəri müxtəlif illərdə Azərbaycanın "Gənclər paytaxtı" elan edilib. 2012-ci ildən başlayaraq hər il paytaxt Bakı şəhəri istisna olmaqla, Azərbaycanın şəhər və rayonlarından biri "Gənclər paytaxtı" elan olunur. Bu günədək Gəncə, Biləsuvar, Quba, İsmayıllı, Şəmkir, Balakən, Naxçıvan, Şamaxı, Masallı, Sumqayıt kimi şəhər və rayonlar Azərbaycanın "Gənclər paytaxtı" seçilib. Məlumat üçün bildirək ki, "Gənclər Paytaxtı" 1 il müddətinə seçilir. Bu müddət ərzində, həmin şəhər (rayon) gənclərin ictimai, siyasi, sosial, iqtisadi və mədəni həyatda fəal iştirakını təmin edir, onların intellektual və yaradıcılıq potensialının artırılması yeni ideya və layihələrinin həyata keçirilməsinə dəstək verir. Bu gənclərə göstərilən diqqət, qayğı və etimadın bariz nümunəsidir. Bu, bütövlükdə, Azərbaycan dövlətinin gənclərin ictimai-siyasi fəallıqlarına, müxtəlif sahələrdə qazandıqları əhəmiyyətli uğurlara verdiyi yüksək qiymətdir. Azərbaycan gəncləri gördüyü işlərlə, qazandığı yeni-yeni nailiyyətlərlə ölkəmizin daha da inkişaf etdirilməsinə öz töhfələrini verirlər. Son illər gənclər siyasətinə ayrılan diqqət və qayğının nəticəsidir ki, gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə uğurla təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Təsadüfi deyil ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti dünyada müasir və uğurlu model kimi qiymətləndirilir.

## "AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ HƏR ŞEYDƏN ÜSTÜNDÜR"

Bu gün ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli yer tutmalarının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə töhfəsini verməyə çalışır.

Müasir dövrdə elm və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar 2018-ci ildə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalamışdır. Ölkəmizdə gənclərin məşğulluğunun təmin olunması da diqqətdədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatıdır. Azərbaycanda gənclər siyasəti uğurla həyata keçirilir. Sosial-siyasi həyatın bütün sferalarına nəzər salsaq, orada gənclərin əksəriyyət təşkil etdiyini görərik. Bu, Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir.

Ölkə gənclərinin qarşıdakı dövrdə əsas vəzifələrinin Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi olduğunu vurğulayan Prezident İlham Əliyev bu barədə deyib: "Bu gün böyük xoşbəxtlikdir ki, biz müstəqillik dövründə yaşayırıq və əsl müstəqil siyasət həyata keçiririk. Ona görə bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycanın dövlət müstəqilliyi hər şeydən üstündür, Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır. Bir daha demək istəyirəm ki, müstəqilliyi qorumaq üçün mütləq bilik, savad, vətənpərvərlik və milli təfəkkür olmalıdır".

***Nəzakət ƏLƏDDİNQIZI***



MƏTANƏT

# TƏRSİNƏ çevirdiyimiz dünya...

Vaxt var idi ki, biz yalnız doğru və düzgün olanı edirdik. Düzgün geyinirdik, düzgün qidalanırdıq, yerində danışıb, yerində gülürdük, özümüzü doğru necə olmalıdır, cəmiyyətdə elə aparırdıq. Lakin sonralar səmum, gilavar, xəzri də deyil, müasirlik adlı bir külək əsdi, bütün düz olanları özü ilə birlikdə harasa apardı. Qaldıq tərsinə həyatda. Əvvəlki abır-həyalı geyimlərimizdən, sağlam qidalanmağımızdan, böyük-kiçik yanında, hətta küçədə, cəmiyyət arasında özümüzü necə aparmağımızdan çox az bir şeylər qaldı. Biz düz ikən bir küləyin səmtimizi dəyişməsi ilə tərsinə çevrildik.

Hər il yanvarın 31-i "Dünya Tərsinə Günü" kimi qeyd olunur. Çox maraqlıdır... Bu gün qeyri-adi və əyləncəli şəkildə hadisələrə və rutinlərə qarşı çıxmaq imkanı təqdim edir. Normalda doğru olan şeylərin tərsini etmək, normal olmayan işləri görmək və ya arxa-arxaya yanaşmaq bu günün ruhuna uyğundur. Bu xüsusi gün insanları öz yaradıcılıqlarını ortaya qoymağa təşviq edir, onlara əyləncəli təcrübələr yaşamağa və bir müddətlik gündəlik iş rejimlərini dəyişməyə imkan verir. İnsanlar qeyri-adi paltar geyə, yeməkləri tərs qaydada yeyə, normaldan fərqli istiqamətlərdə gəzə və ya tərs qaydada təşkil edilən fəaliyyətlərdə iştirak edə bilər. Eyni zamanda, bu gün yumoristik atmosferdə yumor hissini təşviq edir və insanları gündəlik həyatda baş verən hadisələrə fərqli prizmadan baxmağa dəvət edir.

Həqiqətən çox maraqlıdır, deyilmi? Lakin həmin "Dünya Tərsinə Günü"nə bu günün prizmasından baxılsa, düşünürəm ki, bütün dünya yığışar və bu günün adını "Dünya Düzünə Günü" olaraq dəyişər. Çünki tək bizdə deyil, bütün dünyada dünən dünəndə, ondan çox az nələrsə bu gündə qalıb. Elə ki, dünya müasirləşdi, ötən əsrləri, illəri arxada qoydu, hər şey də elə bununla dəyişdi. Yeni texnologiyalar- kompüterlər, smartfon telefonlar həyatımıza daxil oldu-olmadı, biz dəyişib ayrı adamlar olduq. İnternet əsri ötən əsrləri əlimizdən aldı. Bir-birinin ardınca yaranan sosial şəbəkələr yeni məskənimiz oldu. Biz qaldıq həmin şəbəkələrdə, ta öz dünyamıza qayıtmağı unutduq. Elə orada qaldıqca da geyimlərimiz, qidalarımız da qaldı həyatımızın o üzündə. Ətəklərimiz dizdən, köynəklərimiz də göbəkdən bir qarış yuxarı qalxdı. Paltarımızın sinəsi, qolları təxirə salındı. Kişilər qadın, qadınlar kişi geyimləri geyinməyə başladı: kişilər şalvarı genəltdi, qadınlar daraltdı. Kişilər örtülü, qadınlar açıq geyinməyə başladı. Şalvarların dəbi buddan başlayıb topuğa qədər ara-ara yarıqlar oldu. Naməhrəm yerlər bayırda qaldıqca "çox dəbliyik",- dedik, özümüzlə fəxr etdik. Göbəyi, sinəsi görünməyənlərə "kəndçi" dedik. Saçı üç rəngdə, corabının hər tayı ayrı rəngdə, estetik əməliyyatları olmayana dəbsiz dedik...

Nənə-analarımızın min bir dadda yeməkləri "Mcdonalds"ların, "KFC"lərin güdazına getdi. Evlərdə qazan asıb yemək bişirən az-az adam qaldı. Liftlər bina sakinlərindən çox evlərə yemək daşıyan kafe-restoran işçilərinə, "Wolt"lara xidmət etməyə başladı.

Toy, yas mərasimlərinə, bayramlara xas adətlər unudulmağa başladı. Toylar əndazədən çıxdı, əvvəlki şənlikli toylardan əsər-əlamət qalmadı. Yaslar görkəmini dəyişib qonaqlıq məclislərinə çevrildi. Toya bir evdən bir adam gəldi, pula görə. Yasa bir evdən hamı gəldi, pulsuzdur, deyə...

Bayramlarda kəndlərdə yaşayan valideynləri gedib görməyə, əllərindən öpməyə lüzum görmədi insanlar artıq. "Görüntülü mümkündür də",- deyib başladılar ölkənin bu başından o başı ilə danışmağa, doğmalarını təbrik etməyə, onlayn bayramlaşmağa...

Fərqinə varan varsa, Novruz tonqallarının qığılcımları da əvvəlki kimi səmaya dəymir. Əvvəlki kimi tonqal başına hər evdən hər kəs də toplaşmır. 3-5 nəfər olar, ya olmaz tonqal başında. Əvvəlki şaqraq gülüşləri, çal-çağırlı mərasimləri, papaqatmaları, qulaq falına çıxmaları dünəndə qoyub bu günə gəldik.

Uşaqlarımızı oynamağa, gəzməyə aparmağı da dünəndə qoyduq. Onları evdə ya kompüterlərin arxasında, ya televizorun önündə əyləşdirdik, ya da əllərinə telefon verib bir küncə sıxışdırdıq ki, səsləri çıxmasın. "Yeddi daş", "Qovala qaç", "Bənövşə"ni pleysteyşinlərdəki vahiməli oyunlarla (hansı ki, övladlarımıza qəddarlıq, vəhşilik təbliğ edir) əvəzləşdirdik...

Günlərlə danışmaq olar tərsinə çevirdiyimiz belə gündəlik həyat hadisələrindən. Belə isə dünya 31 yanvarı nə üçün Tərsinə Günü kimi qeyd edir? Gərəkdir ki, 365-i tərsinə çevirən bizlər 31 yanvarı dəyişib Düzünə Günü kimi qeyd edək və bəlkə dünəndə qoyduqlarımızı ilin bircə günü yada salıb yenidən qaytara bilək.

Ümidvarıq ki, dünya bu günün əsl mahiyyətinə ötəri bir nəzər salar. TƏRSİNƏ DÜZÜNƏ çevrilər...

SON SƏHİFƏ

SƏS

3 fevra
l

# Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti



**Arif Zeynalzadə**
*"Azərbaycan Milli Peyk İnnovasiya Müsabiqəsi"nin qalibi*

Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.Ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu. Ümummilli lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etdi. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir. Qanunlar, fərman, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib.

Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir. Dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin ölkədə "Gənclər ili" elan olunması da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi məqsədi daşıyır.

Prezident İlham Əliyevin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur. Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızda çoxlu sayda Olimpiya İdman Komplekslərinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır. Bu gün tam əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin gəncliyə və gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır.

Vətən müharibəsində düşmənin hər cür təxribatına inamla cavab verən Azərbaycan əsgərinin hər an, hər dəqiqə xalqın dəstəyini hiss etməsi, gənclərimizin bir nəfər kimi Vətən torpağının müdafiəsi uğrunda mübarizəyə hazır olması əyani şəkildə nümayiş etdirməsi, gənclərə münasibətdə Heydər Əliyev kursunun, İlham Əliyev siyasətinin təntənəsidir. Tarixən Azərbaycan gəncliyi bir çox sınaqlarla üzləşmiş, bugünkü parlaq və müstəqil Azərbaycan Respublikasının vətəndaşı adını almaq onun üçün heç də asan olmamışdır. Gəncliyimiz ən böyük və çətin sınağını, eləcə də ən ağır itkilərini isə düşmən tapdağı altında olan torpaqlarımızın geri qaytarılması uğrunda vermişdir. Biz bu gün əminliklə və böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan gənci Mübariz İbrahimovdur, Dövlətzadə Cəbrayıldır, adları neçə-neçə tarixlərə sığmayan igidlərimizdir. 44 günlük Vətən müharibəsində şəhid və qazilərimiz Azərbaycan gəncinin vətən sevgisini, qüdrətini, qələbə əzmini bütün dünyaya sübut etdi. Bununla da, tarix onları deyil, onlar tarixi yazdılar. Var ol, Azərbaycanımızın dünəni, bu günü və sabahı olan Azərbaycan gənci!

## ELAN

"Kompleks qazma işləri" trestinin Neft Daşları - Günəşli İstehsalat bölümü Briqada №6, kran maşinisti vəzifəsində çalışan Zeynəddin Əhmədağa oğlu Şixmuradovun iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Elektrikli avtomobillər radiasiya yayır?



*HƏKİM AÇIQLADI*

Son zamanlarda elektrik mühərrikli avtomobillərə tələbat gün keçdikcə daha da artır. Demək olar ki, əksəriyyət bu maşınlardan əldə etmək istəyir. Çünki bu avtomobillər daha az xərc tələb etməklə yanaşı, həm də komfortludur. Son günlərdə elektrik avtomobilləri haqqında müəyyən xoşagəlməz iddialar yayılmağa başlayıb. Belə ki, bəzi ekspertlər elektrik avtomobillərinin akkumlyatorlarının radiasiya ötürdüyünü iddia edir. Ona görə də bu avtomobillərdən daha çox istifadə edənlərin səhhətində ciddi narahatlıqlar yaranır.

Məsələ ilə bağlı radioloq, tibb eksperti Aydın Əliyev SİA-ya açıqlamasında bildirib ki, bunun hələ ki, sübutu təqdim edilməyib: "Ola bilsin ki, elektrik avtomobilləri radiasiya ötürür. Bunu bilməyin ən asan yolu odur ki, avtomobil sahibi məsələ ilə bağlı Fövqəladə Hallar Nazirliyinin radiasiya təhlükəsizliyi ilə bağlı qurumuna müraciət etməlidir. Müraciətə əsasən həmin qurum elektrik avtomobilini yoxlayıb, rəy verir. Yalnız bundan sonra konkret danışmaq olar. İndiki halda nəsə demək çətindir".

***Arzu Qurbanlı***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

**Tiraj: 2000**